*Təranə Arifqızı*



## SƏSSİZLİYİ OYATMA...

Tənhalığın ağuşunda yox olub,
Sənlə dolu kimsəsiz şəhərdəyəm.
Addım-addım yeyirəm küçələri...
Damla-damla yağışdayam,zərdəyəm.

Su üzündə yox olası gəmitək,
Eşitmirəm addımların harayın...
Külək öpür uz-gözümü səhərdən,
Tellərimi dəli-dəli darayır...

Bir evim var səssizliyin içində,
Pəncərədə soyuq izlər qarışır.
Astanası hər addımı bələmir...
Tanış gözlər divarıyla danışır...

Çapır, çapır köhlənini içimdə...
Yavaş, külək! Səssizliyi oyatma...
Bu kimsəsiz şəhəri al tərkinə,
Mən qarışıq apar, bir də qayıtma...

***

Hər kəsin həyatında
Bir qaranlıq oda var..
Qaranlıqda bəyazlar...
İşıq şaçır odalar...

Yaddaşını ver mənə,
Sənə bir səfərim var..
Odalara qapanmış
Sirli bir nəfərim var...

Tut əlimdən, gəzək bir
Bu qara bəyazları....
Dərinindən çıxaraq
Boğulan dayazları.

Dan yerindən qan alaq
Ay üzlü səhərlərin...
Addım-addım dəfn edək
Qaranlıq şəhərləri...

***

Ümidim qollarımın yaxasından tutub,
çırpır məni yerdən-yerə...
getmə, getmə, deyir...

Ağrılar damarlarımda danışır...
barmaqlarımın ucundan girib,
qanımla içimdən çıxır...
başımda sərxoş fikirlər dizi üstə düşüb,
məni ayıltmağa çalışır...
itmə, itmə, deyir...

Ürəyim özümdən kənar gəzir,
dilim özümdən yox, özgələrdən danışır...
sözlər əlbəyaxa olub sarı sularda,
bitirmə, bitmə,deyir...

Gecələr azğın-azğın açıb ağzını
udur səhərin dan üzünü...
sən hələ görməmisən bütövlüyün yan üzünü...
yanar, yandırar... sən yanırsan,
etmə, nə olar... etmə, deyir...

İlahi, qurtar məni bu doğulmadan,
halqanı çəkmə, çəkmə...
əllərini çəpər elə...
qurtar məni bu boğulmadan...
işığından qopar məni, qanad göndər...
al özümdən, apar məni maviliyə....
Ağ yollara səfər elə...

Ədalət.- 2020.- 24 yanvar. S. 6.